# *Ayyüce Türkeş TAŞ:* "Türkiyə və Azərbaycan türk dünyasında əlaqələrin möhkəmlənməsində lokomotiv rolunu oynayır"

"Türkiyə və Azərbaycan türk dünyasında əlaqələrin möhkəmlənməsində lokomotiv rolunu oynayır".

Bunu "Report"un yerli bürosuna açıqlamasında Türkiyə parlamentində Adana şəhərini təmsil edən İYİ Partiyadan olan millət vəkili Ayyüce Türkeş Taş Ankarada keçirilən Türkiyə, Azərbaycan və Özbəkistan üçtərəfli görüşünü şərh edərkən bildirib.

Onun sözlərinə görə, türk dövlətləri arasında yüksəksəviyyəli görüşlərin intensivləşməsi onları daha da yaxınlaşdırır: "Türk Dövlətləri Təşkilatının (TDT) 34 hərfdən ibarət ortaq türk əlifbası ilə bağlı razılıq əldə etməsi böyük irəliləyişdir. Ticarət, təhsil, hüquq, diplomatiya və digər sahələrdə də birgə mühüm fəaliyyətlərə start verilib. Bu məsələlərin daha yüksək səvyyələrdə gündəmə gəlməsi isə çox ciddi addımların atıldığını sübut edir. Artıq xəyallarımızdakı türk dünyası gerçəyə çevrilir. Biz bütün bunları dəstəkləyir və uğurların davamını gözləyirik".




Ayyüce Türkeş Taş xatırladıb ki, mərhum atası - Milliyyətçi Hərəkat Partiyasının təsisçisi və sədri, Baş nazirin keçmiş müavini Alparslan Türkeşin də Türkiyə ilə Azərbaycanın türk dünyasında əlaqələrin möhkəmlənməsində mühüm fəaliyyətləri olub: "Atam "Türkyənin xaricində də türklər var, onların da qayğısına qalmalıyıq" deyib yola çıxdı. Xüsusilə Azərbaycanla sıx əlaqələr qurdu. 50 il keçdikdən sonra Türkiyə xaricindəki türk dövlətlərinin müstəqilliklərinə şahid oldu. Ona görə də bir milliyyətçi ailəsində doğulmağın qürurunu yaşayaraq atamdan öyrəndiklərimi böyük sevgi ilə türk dünyasına aşılayıram. İnanıram ki, türk dövlətlərinin birgə fəaliyyətləri daha da effektiv şəkildə inkişaf edəcək. Mən də bu istiqamətdə bacardığım dəstəyi verməyə hazıram".

Azərbaycan. - 2025.- 31 yanvar (№ 21).- S.5.